DOI:10.30546/gdu.3.2024

**UOT:94.(479.24).**

# HEYDƏR ƏLİYEV KONSTİTUSİYASI DÖVLƏTİMİZİN MİLLİ SƏRVƏTİDİR

***dos., t.ü.f.d. Ələsgərov Baxış***
***ADPU-nun Ağcabədi filialı***
***elesgerov.adpu@mail.ru***

**Xülasə:** *Məqalədə Azərbaycan müstəqillik əldə etdikdən sonra Heydər Əliyevin ölkədə apardığı əsaslı islahatlardan bəhs edilir. Ulu Öndərin ölkəyə rəhbərliyi dövründə onun təşəbbüsü sayəsində hazırlanan milli konstitusiyamızdan söz açılır.*

*Məqalədə həmçinin Heydər Əliyev tərəfindən təməli qoyulan Azərbaycan konstitusiyası, onun müddəalarının qorunub saxlanılmasından bəhs edilir. Heydər Əliyev tərəfindən yaradılan bu əsaslar hazırda Azərbaycan xalqına yol göstərir.*

*Heydər Əliyev müstəqil Azərbaycanın inkişafı üçün konstitusiyanın əhəmiyyətini tam dərk edərək dövlətin hüquqi əsas istiqamətlərini möhkəmləndirmək və insan – vətəndaş hüquqlarını müdafiyə etmək məqsədini güdürdü. Bu məqsədlədə müstəqil konstitusiyanın yazılıb ərsəyə gəlməsinə böyük səy göstərmişdir. Onun göstərişi əsasında konstitusyanın hazırlanmasına böyük diqqət yetirilmişdir. Onun ideyaları altında Azərbaycan müasir bir hüquq, demokratik dövlət formalaşdırmağa doğru inamla irəliləyirdi.*

*Bu, koteksdə, Heydər Əliyevin Azərbaycanın konstitusya tariximzdəki rolu, yalnız bir siyasi lider kimi deyil, eyni zamanda bir ideloq, strategiya və hüquqi inkişafın təşəbbüskarı kimi də dəyərləndirilir. Heydər Əliyevin yaratdığı müstəqil Azərbaycan konstitusyası Azərbaycan xalqının itirlmiş hüquqlarını özlərinə qaytardı. Itirlmiş müstəqillik sindromunu xalqa qaytarmış oldu. Ana dilindən istifadə hüququ senzuranın ləğvi latın qrafikasına keçid və sairə məsələlər Cumhuriyyət dövründə olduğu kimi xalqın özünə qaytarıldı. Xalqın mülkiyyət hüquqi tanındı. Yeni konstitusiyanın təsbiti ilə əlaqədar olaraq xalqımızın suveren hüquqları tanındı. Bu gün ki, gün Heydər Əliyevin siyasi irsi, Azərbaycanın müstəqil inkişafında, insan hüquqlarının və hüquqi dövlət prinsiplərinin təmin olunmasında fəaliyyət göstərən müasir qüvvələr üçün bir ilham mənbəyidir. Məqalədə Azərbaycanın müstəqillik əldə etdikdən sonrakı dövrlərdən bəhs edilmişdir. Həmin illərdə Müstəqil dövlətimizin konstitusyon qanunların yazılması əsas vəzifə kimi qarşıya qoyulmuşdur. Əsrlər boyu işğalda sovetlərin tərkibində yaşamış xalqımız yenidən öz müstəqilliyinə qovuşdu. Bütün bu məsələlər məhz Heydər Əliyevin sayəsində mümkün oldu. Cumhuriyyət dövründə azadlıqlarımızı bərqərar etsəkdə ancaq konstitusiya qanunlarımızı bərpa edə bilmədik, İkinci müstəqilliyimiz dövründə Heydər Əliyevin sayəsində 6 bölmə XII fəsil 158 maddədən ibarət Azərbaycan konstitusiyası onun xalq müzakirəsinə verilərək referendum yolu ilə qəbul olundu. Nəticədə hüquqlarımız özümüzə qaytarıldı. Məqalədə Heydər Əliyevin əsasını qoyduğu Azərbaycan Respublikası konstitusiyası Azərbaycan xalqının gələcək inkişafı üçündə müqəddəs bir qanundur. Qanunun aliliyinə hörmət hər birimizin borcumuzdur.*

**Açar sözlər:** Azərbaycan konstitusiyası, Ümummili Lider, Azərbaycan dövləti, müstəqil dövlətçilik.

**Keywords:** Azerbaijan constitution, National Leader, Azerbaijan state, independent statehood.

**Ключевые слова:** Конституция Азербайджана, Национальный Лидер, Азербайджанское государство, независимая государственность.

12 noyabr Azərbaycanda Konstitusiya günüdür. Düz 15 il öncə, yəni 1995-ci il noyabr ayının 12-də Ümummilli Liderimiz Heydər Əliyevin rəhbərliyi ilə ilk dəfə müstəqil Azərbaycan Respublikasının Ana Yasası olan Konstitusiyamız hazırlanaraq ümumxalq

DOI:10.30546/gdu.3.2024

səsverməsi referendum yolu ilə qəbul edildi. Həmin günü ölkədə ilk Konstitusiyamızın qəbul olunduğu gün kimi qeyd edirik. Qeyd edək ki, Konstitusiya 5 bölmə, 12 fəsil, 158 maddədən ibarətdir. 2002-ci ilin avqustunda, eləcə də, 2009-cu ilin martında referendum yolu ilə Konstitusiyaya əlavə və dəyişikliklər edilib. [1].

Azərbaycan Respublikasının Konstitusiya layihəsinin hazırlanması barədə danışarkən, heç bir mübaliğəyə yol vermədən, qeyd etmək olar ki, bu, müstəqil dövlətçiliyimizin Ümummilli Lider Heydər Əliyevin əsəridir. 1995-ci il iyunun 5-də Ulu Öndər Heydər Əliyevin Sədrliyi ilə Konstitusiya Komissiyasının ilk iclasından başlayaraq, 12 noyabr referendumunadək Ümummilli Lider Azərbaycanın Əsas Qanununun hazırlanmasına, onun bütün prinsipial müddəalarının geniş ictimaiyyət tərəfindən müzakirəsinə şəxsən rəhbərlik edib. Ümummilli Liderimiz Heydər Əliyev bu sənədin təkcə dövrün tarixi və siyasi reallıqlarının deyil, bütövlükdə, xalqın milli-mənəvi dəyərlərinin süzgəcindən keçərək qəbul olunmasına çalışırdı və buna da nail oldu.

Ümummilli Liderimiz Heydər Əliyevin titanik səyləri nəticəsində 1995-ci il noyabrın 12-də qəbul edilən Azərbaycan Konstitusiyası fundamental bir sənəd kimi demokratik inkişaf, hüquqi dövlətçilik və insan haqları sahəsində mütərəqqi dünya təcrübəsinin başlıca nailiyyətlərini özündə əks etdirdi. Eyni zamanda, bu Konstitusiya Azərbaycanın müstəqil dövlətçilik tarixinin şanlı səhifəsini, 1918-ci ildə qəbul olunmuş İstiqlal Bəyannaməsini özündə yaşadan, tarixi varisliyi təmin edən bir sənəddir. Bütün bunlarla yanaşı, 1995-ci ilin 12 noyabrından sonrakı dövrə nəzər salsaq, görərik ki, Azərbaycan dövləti bu istiqamətdə zəngin hüquqi islahatlar və demokratikləşmə yolu keçib. Yeni Konstitutsiyanın tələblərinə uyğun olaraq, 1995-ci ildən başlayaraq Azərbaycan insan hüquq və azadlıqlarının, demokratik təsisatların inkişafının təminatı ilə bağlı bir sıra beynəlxalq konvensiyalara qoşulub. Ana Yasada təsbit olunduğu kimi, 1998-ci il fevralın 10-da Azərbaycanda ölüm hökmü ləğv edilmiş və Azərbaycan nəinki, MDB, hətta Şərq aləmində bu tarixi qərarı qəbul edən ilk dövlətdir. O vaxt hətta Avropa Şurasının üzvü olan bir çox ölkələr analoji addım atmamışdılar. 1998-ci il iyunun 18-də isə Ümummilli Lider Heydər Əliyevin Fərmanı ilə təsdiq olunan Azərbaycanda insan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı hüquqi islahatlar prosesində yeni mərhələ açdı. 14 iyul 1998-ci il tarixdə Azərbaycanda konstitusion müstəvinin ən vacib institutlarından biri - Konstitusiya Məhkəməsi fəaliyyətə başladı. Konstitusiya Məhkəməsinin fəaliyyətə başlaması, eyni zamanda, 1995-ci ildə qəbul olunmuş Əsas Qanunun keçid müddəalarından birinə əməl olunması demək idi. Həmin il avqustun 8-də isə dövlət başçısı konstitusion hüququn təməl prinsiplərindən olan söz azadlığının təminatı ilə bağlı tarixi bir qərara imza atdı- ölkədə senzura tamamilə ləğv edildi. 1999-cu il dekabrın 12-də isə Konstitusiyada təsbit olunmuş mühüm keçid müddəalarından daha birinə əməl olundu-Azərbaycanda ilk bələdiyyə seçkiləri keçirildi, ölkədə yerli özünüidarə institutu fəaliyyətə başladı. Nəhayət, 2001-ci ilin yanvarında Avropa Şurasına tamhüquqlu üzv qəbul edilən Azərbaycan demokratik dövlətlər birliyinin sırasında özünəlayiq yer tutduğunu sübut etdi. [2].

Beləliklə, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə demokratik dəyərlərə və prinsiplərə uyğun ilk milli Konstitusiya hazırlanaraq, 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edildikdən sonra Azərbaycanda demokratik quruluşun və hüquqi dövlətin təməli qoyuldu.

Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycan Demokratik Respublikasının xalqımızın müstəqillik tarixində oynadığı roldan bəhs edərkən demişdir: "1918-ci ildə yaranmış Azərbaycan Demokratik Cümhuriyyəti bizim milli sərvətimizdir, tariximizin parlaq səhifəsidir. Ondan sonrakı illər, onilliklər də həyatımızın böyük mərhələləridir, parlaq

DOI:10.30546/gdu.3.2024

səhifələridir, xalqımızın böyük nailiyyətləridir. Məhz bunlar hamısı birlikdə indiki müstəqil Azərbaycanın həm iqtisadi, həm intellektual, həm də mədəni potensialını yaradıbdır".

Konstitusiyada insan amili, vətəndaşların hüquqları, onların rifahının və təhlükəsizliyinin təmin olunması ön plana çəkilmişdir. Ən əsası isə Konstitusiyamız müstəqil respublikamızın bugünkü yüksək və dinamik inkişaf səviyyəsinə gəlib çatmasını təmin etmişdir.

Təsadüfi deyil ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyev də dəfələrlə vurğulamışdır ki, demokratik proseslərin davamlı şəkildə aparılmadığı hansısa dövlətin iqtisadi sahədə yüksək nəticələr əldə etməsi, beynəlxalq arenada layiqli yerini tutması, dünya iqtisadiyyatına inteqrasiyası mümkün deyildir. Eyni zamanda, iqtisadi cəhətdən inkişaf etməmiş hansısa dövlətdə demokratikləşməyə və vətəndaş cəmiyyəti quruculuğuna yönələn cəhdlər uğursuzluqla nəticələnir. Məhz bu reallıqdan çıxış edən Azərbaycan Prezidenti cənab İlham Əliyev hər iki təmayülə vəhdət şəklində yanaşılmasını vacib sayır və ölkənin uzunmüddətli inkişafını məhz demokratik və iqtisadi islahatların paralel şəkildə davam etdirilməsi şərti ilə real hesab edir. Dövlət başçısının demokratik inkişaf konsepsiyası kifayət qədər təkmil səciyyə daşıyır və inkişaf etmiş dünya dövlətlərinin təcrübəsindən qaynaqlanır. [3]. "Əsl açıq demokratik cəmiyyəti ancaq maddi rifah əsasında qurmaq mümkündür. İqtisadi cəhətdən geridə qalmış dövlətlərdə demokratik proseslər də geridə qalır. O ölkələr ki, iqtisadi cəhətdən güclüdürlər, o ölkələrdə demokratiyanın inkişafı da çox yüksək zirvədədir. Ona görə də, iqtisadi islahatların davam etdirilməsi xalqın maddi rifahının yaxşılaşdırılması, demokratik cəmiyyətin qurulması və formalaşması üçün başlıca şərtdir. Ancaq bununla bərabər, əgər sadəcə olaraq, iqtisadi məsələlərə diqqətimizi yönəltsək və siyasi islahatlarda hansısa bir yubanma olarsa, bu da Azərbaycanın qarşısında duran vəzifələrin həlli üçün bizə imkan yaratmayacaqdır. Siyasi islahatlar mütləq aparılmalı və Azərbaycan müasir ölkəyə çevrilməlidir"-deyən Azərbaycan Prezidenti bu fikirdədir ki, demokratiya vətəndaşların sosial-siyasi, mədəni və iqtisadi rifahına, bu sahələrdə baş verən müsbət dəyişikliklərə adekvat reaksiya verməlidir. [4].

XX əsrdə bizim qazandığımız uğurlar, o cümlədən, müstəqil dövlət qurmaq əzmimizin köklərini uzaq və yaxın tariximizdə axtarıb tapmaq lazımdır. Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsindən sonra qarşıda duran ən mühüm vəzifələrdən biri ölkədə hüquqi, demokratik, sivil dövlət quruculuğu proqramının həyata keçirilməsinə nail olmaq idi. noyabrın 12-də referendum yolu ilə müstəqil Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi, yeni parlamentin təşkili üçün seçkilər keçirilməsi dövlət quruculuğu sahəsində strateji proqramın ilk mərhələsi oldu. [5].

Bu dövrdə Ümummilli Lider Heydər Əliyev bir tərəfdən Azərbaycanın müstəqilliyinə, dövlətçiliyinə qarşı çıxan qəsdlərin qarşısını məharətlə aldı, digər tərəfdən dövlət quruculuğu işinə rəhbərlik etdi. Bu sahədə qarşıya çıxan maneələri əzmlə aradan qaldırdı. Fərəhlidir ki, bu gün həmin missiyanı Ulu Öndərimizin siyasi varisi, möhtərəm Prezidentimiz cənab İlham Əliyev çox böyük fədakarlıqla davam etdirir.

## ***Ədəbiyyat***


1. Z. Əsgərov, Azərbaycan konstitusiyası və hüququn əsasları Bakı, 2006.
2. Hüquq və qanun jurnalı Bakı, 2022.
3. Hüquq yayın evi Bakı, 2007.
4. Hüquqi dövlət və qanun jurnalı Bakı, 2016.
5. Hüquqi dövlət və qanun jurnalı Bakı, 2017.
6. Z. Əsgərov, Konstitusiya hüquq münasibətləri Bakı, Qanunçuluq jurnalı.
7. İnternet materialları.

DOI:10.30546/gdu.3.2024

## HEYDER ALIYEV'S CONSTITUTION IS THE NATIONAL WEALTH OF OUR STATE

***Alasgarov Bakhish***

***Summary***

The article talks about the fundamental reforms carried out by Heydar Aliyev in the country after Azerbaijan gained independence. During the leadership of the Great Leader, our national constitution was prepared thanks to his initiative.

The article talks about the preservation of the constitution of Azerbaijan, which was founded by Heydar Aliyev, and its provisions. These foundations created by Heydar Aliyev are currently guiding the people of Azerbaijan.

Heydar Aliyev, fully understanding the importance of the constitution for the development of independent Azerbaijan, pursued the goal of strengthening the legal main directions of the state and protecting human and civil rights. For this purpose, he made a great effort to write an independent constitution. On the basis of his instructions, great attention was paid to the preparation of the constitution. Under his ideas, Azerbaijan confidently advanced towards forming a modern legal and democratic state.

In this context, the role of Heydar Aliyev in the constitutional history of Azerbaijan is evaluated not only as a political leader, but also as an ideologist, strategy and initiator of legal development. The independent Azerbaijani constitution created by Heydar Aliyev restored the lost rights of the Azerbaijani people. He returned the syndrome of lost independence to the people. The right to use the mother tongue, the abolition of censorship, the transition to the Latin script, and other issues were returned to the people themselves, as they were during the Republic. The property of the people was recognized as legal. In connection with the adoption of the new constitution, the sovereign rights of our people were recognized. Today, Heydar Aliyev's political legacy is a source of inspiration for modern forces working in the independent development of Azerbaijan, ensuring human rights and legal state principles. The article talks about the periods after the independence of Azerbaijan. In those years, the main task was to write the constitutional laws of our independent state. Our people, who lived under Soviet occupation for centuries, regained their independence. All these issues became possible thanks to Heydar Aliyev. When we established our freedoms during the republic, we could not restore our constitutional laws. During our second independence, thanks to Heydar Aliyev, the constitution of Azerbaijan, consisting of 6 sections, Chapter XII, and 158 articles, was submitted to the people for discussion and adopted through a referendum. As a result, our rights were returned to us. In the article, the constitution of the Republic of Azerbaijan, founded by Heydar Aliyev, is a sacred law for the future development of the Azerbaijani people. Respect for the rule of law is our duty.

## КОНСТИТУЦИЯ ГЕЙДЕРА АЛИЕВА – НАЦИОНАЛЬНОЕ БОГАТСТВО НАШЕГО ГОСУДАРСТВА

***Алескеров Бахиш***

***Резюме***

В статье говорится о фундаментальных реформах, проведенных Гейдаром Алиевым в стране после обретения Азербайджаном независимости. Во время правления Великого Вождя по его инициативе была подготовлена наша национальная конституция.

DOI:10.30546/gdu.3.2024

В статье говорится о сохранении конституции Азербайджана, основанной Гейдаром Алиевым, и ее положений. Эти фонды, созданные Гейдаром Алиевым, в настоящее время руководят азербайджанским народом.

Гейдар Алиев, полностью понимая важность Конституции для развития независимого Азербайджана, преследовал цель укрепления основных правовых направлений деятельности государства, защиты прав человека и гражданина. С этой целью он приложил большие усилия, чтобы написать независимую конституцию. На основе его указаний большое внимание было уделено подготовке конституции. Под его идеями Азербайджан уверенно продвигался по пути формирования современного правового и демократического государства.

В этом контексте роль Гейдара Алиева в конституционной истории Азербайджана оценивается не только как политического лидера, но и как идеолога, стратегии и инициатора правового развития. Независимая конституция Азербайджана, созданная Гейдаром Алиевым, восстановила утраченные права азербайджанского народа. Он вернул народу синдром утраченной независимости. Право пользования родным языком, отмена цензуры, переход на латиницу и другие вопросы были возвращены самому народу, как это было при республике. Собственность народа была признана законной. В связи с принятием новой конституции были признаны суверенные права нашего народа. Сегодня политическое наследие Гейдара Алиева является источником вдохновения для современных сил, работающих в независимом развитии Азербайджана, обеспечении прав человека и принципов правового государства. В статье говорится о периодах после обретения независимости Азербайджана. В те годы главной задачей было написание конституционных законов нашего независимого государства. Наш народ, веками живший под советской оккупацией, вновь обрел независимость. Все эти вопросы стали возможными благодаря Гейдару Алиеву. Когда мы установили наши свободы во времена республики, мы не смогли восстановить наши конституционные законы. Во время нашей второй независимости, благодаря Гейдару Алиеву, конституция Азербайджана, состоящая из 6 разделов, главы XII и 158 статей, была представлена народу на рассмотрение. обсуждение и принятие на референдуме. В результате права нам вернули. В статье Конституция Азербайджанской Республики, основанная Гейдаром Алиевым, является священным законом будущего развития азербайджанского народа. Соблюдение верховенства закона – наш долг.

***Rəyçi: t.ü.f.d. Kərimli A.T.***

***İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası kafedrasının 08 oktyabr 2024-cü il tarixli iclasın 02 saylı protokolu***

***Daxil olma tarixi 09 oktyabr 2024 cü il***